DOI: https://doi.org/10.36719/3005-3137/8/264-274

**Sevda Novruzəliyeva**
Azərbaycan Tibb Universiteti
filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009 0007 9535 7799
sevda.novruzaliyeva@mail.ru

**Arzu Mirzəyeva**
Azərbaycan Tibb Universitetinin müəllimi
https://orcid.org/0009-0003-6717-4785
mirzayeva.arzu1960@mail.com

# Ünsiyyət və seçilən fərd olmanın yolları

## Xülasə

Bu məqalədə ünsiyyət və seçilən fərd olmanın yolları ağıl, saf niyyət, cəsarət, səbir, ədəb, sadəlik, acı günlər, dost seçimi, sözün azı, mütaliə və özünə inam prizmalarından araşdırılır. Farsca bütün sitatlar bu şairlərindir: Ə.Firdovsi, X.Şirvani, N.Gəncəvi, F.Əttar, S.Şirazi, H.Şirazi, M.Rumi, S.Təbrizi, M.Feyz-Kaşani, M.İqbal. Bu məqalənin məqsədi budur ki, Azərbaycan oxucusunu ünsiyyətə dair farsdilli ədəbiyyatda olan informasiyalarla tanış etsin, çünki heç də hər kəs farscanı elmi və poeziya səviyyəsində bilmir. Məqaləni fərqləndirən cəhət elə budur. Səbir insan həyatında böyük önəm daşıyır. Səbir olmadıqda insan həyatda bacarıqlı və uğurlu ola bilmir. Ədəb insana insanlıq verən bir yanaşmadır. Ədəb insanı bir çox neqativlərdən qoruyan bir həyat seçimidir. Ağıl düşüncəni yönədir, ona istiqamət və potensial verir, yoluna işıq tutur. Antik dönəmlərdən bu günə kimi böyük insanlar ağılı həmişə uca tutublar. Saf niyyət insanı doğru yola sövq edən, onu xeyirsevər və pozitiv edən bir yoldur. Saf niyyət olmayınca heç kəs doğru yolu qət edə bilməz. Şücaət könüldən qaynaqlanan elə bir potensialdır ki, insanı qorxmaz, hədəfə yönələn, əzmkar və peşəkar edir. Sadəlik sayğı doğuran bir davranışdır. Acı günlər insanı mübariz edən bir potensialdır. Düzgün dost seçimi keçiləcək yolu işıqlı edən gücdür. Az söz nitqə yaraşıq verir, dərrakəni genlədir. Özünə inam mənəvi gücə güc qatır.

***Açar sözlər:*** *ünsiyyət, seçilən fərd, ağıl, saf niyyət, cəsarət, səbir, ədəb, özünə inam, dost seçimi*

**Sevda Novruzaliyeva**
Azerbaijan Medical University
Doctor of Philosophy in Philology, Associate Professor
https://orcid.org/0009 0007 9535 7799
sevda.novruzaliyeva@mail.ru

**Arzu Mirzayeva**
Teacher of Azerbaijan Medical University
mirzayeva.arzu1960@mail.com
https://orcid.org/0009-0003-6717-4785

# Communication and ways to become a standout individual

## Abstract

In this article, communication and the ways to become a chosen individual are examined through the prisms of intelligence, pure intention, courage, patience, decency, simplicity, bitter days, choice of friends, silence, reading and self-confidence. All quotes in Persian are from these poets: A.Firdowsi, Kh.Shirvani, N.Ganjavi, F.Attar, S.Shirazi, H.Shirazi, M.Rumi, S.Tabrizi, M.Feyz-Kashani, M.Iqbal. The purpose of this article is to familiarize the Azerbaijani reader with the information contained in Persian-language literature on communication, because not everyone knows Persian at the scientific and poetic level. This is what distinguishes the article. Patience is of great importance in human life. Without patience, a person cannot be competent and successful in life. Manners are an approach that gives humanity to a person. Manners are a life choice that protects a person from many negatives. Intelligence guides thought, gives it direction and potential, and illuminates its path. From ancient times to the present day, great people have always held the mind in high regard. Pure intention is a path that leads a person to the right path, makes him kind and positive. Without pure intention, no one can take the right path. Courage is a potential that comes from the heart that makes a person fearless, goal-oriented, determined and professional. Simplicity is a behavior that inspires respect. It is a potential that makes a person fight through difficult days. Choosing the right friend is the power that lights the path to be taken. Few words give elegance to speech and broadens understanding. Self-confidence adds strength to spiritual strength.

***Keywords****: communication, chosen individual, intelligence, pure intention, courage, patience, decency, self-confidence, choice of friends*

## Giriş

İnsanlar arasında duyğu, düşüncə, informasiya və xəbər alınma və ötürülməsi olan ünsiyyət insanı formalaşdıran, yetkinləşdirən, təkmilləşdirən bir həyat yoludur. İnsanlıq nəyə çatırsa, ünsiyyətə görə çatır, nəyə çatmırsa, ünsiyyət hesabına çatacaq. Ünsiyyət varlığını dayandırarsa, bəşərin, insanlığın varlığı sona çatacaq.

Məqalədə yer alan sitatlar farscadır, məqalə müəllifi onları Azərbaycan dilinə çevirib. O sitatlar öz dövrü üçün aktual olduğu kimi, indi də aktuallığını tam saxlayır.

Seçilən fərdlər ünsiyyət prosesinə məna, dolğunluq və istiqamət qatırlar. Seçilən fərd dedikdə cəmiyyət ya da bir kollektivdə ağlı, bacarığı və ədəbi ilə fərqlənərək önə çəkilən insanlardır.

## Tədqiqat

Bu məqalədə seçilən fərd olmaq üçün səbir, ədəb, ağıl, saf niyyət, cəsarət, sadəlik, açı günlər, dost, az söz, mütaliə və özünə inam kimi özəlliklərə toxunulur, sadalanan faktorların yoluna tədqiqat baxımından işıq salınır.

***Səbir və seçilən fərd***

Olacaq ya da gələcək bir şeyi təlaş göstərmədən gözləmək bacarığına səbir deyilir. Qəzəb doğuracaq bir şey qarşısında qəzəblənməmək bacarığına səbir deyilir. Cəsarət və mətinliyini itirmədən sıxıntı və çətinliyə qarşı duruş gətirməyə səbir deyilir. Səbir səadət qapısının açarıdır, hər uğurun ilk və son səsidir.

Bir insan səbirli olursa, adil davranar, təvazökar olar, dedi-qoduya yuvarlanmaz, dürüst olar. Bir insan səbirli olursa, eyib və nöqsanları örtülü qalacaq, sağlamlığı qorunacaq, bir çox bəla və müsibətlərdən qurtulmuş olacaq. Səbrin sonu salamatlıq və uğurdur. Dünyada irili-xırdalı elə bir uğur yoxdur ki, orada aparıcı faktorlardan biri səbir olmasın. Səbir bir fəzilət (üstün insani davranış) olaraq anlaşılır. Fəzilət sanki bir incidir, zira inci pulu olanlarda olur, fəzilət olan səbir isə dözümlü, mətanətli insanlarda olur.

17-ci əsr Azərbaycan şairi Saib Təbrizi farsca qəzəllərinin birində deyir ki, ey insan öz incini hər gərəksizin daşına çalma ( öz ad-sanını, mövqeyini, gələcək planlarını gərəksiz birinə zədələtmə ) və gözlə ki, gərəkli bir incişünas ortaya çıxsın, səbir elə ki, qarşına uğur, sayğı, seçilən bir fərd olmaq üçün şans gəlsin. (Saib, 2019, s.143):

*Qouhəre-xodra məzən bər sənge-hər nağabeli,*
*Səbr kon, peyda şəvəd qouhər şenase-ğabeli.*

*Sən öz incini hər bir gərəksizin daşına çalma,*
*Səbir elə ki, gərəkli bir incişünas tapılsın.*

***Ədəb və seçilən fərd***

İnsana insanlıq verən özəlliklər arasında ədəb önəmli bir yerə sahibdir. Heyvana ədəb verilmədiyi üçün və insana ədəb verildiyi üçün ədəbi olmayan bir insan səviyyəcə heyvandan aşağı düşür. Bir insanda utanma, çəkinmə, sıxılma, nəzakət duyğuları varsa, o insan ədəblidir. Bir insan əli və dili ilə kimsəni incitmirsə, gözəl davranışı varsa, yardımlaşırsa, dərd və sevincləri bölüşürsə, böyüklərə sayğı və kiçiklərə qayğı göstərirsə, o insan ədəblidir. Bir insan ədəbdən məhrumsa, ailə və cəmiyyət üçün ziyanverici mikrobdan ayrısı deyil.

Dini və fəlsəfi bir anlayış olan ədəb fəzilətin, insani üstünlüyün bir qoludur, həm də aparıcı bir qoludur. Ədəb qoymur ki, insan çox danışsın, başqasının işinə qarışsın, qeybət etsin, yalan danışsın, pislik etsin. 17-ci əsrdə yaşamış iranlı şair və alim Möhsün Feyz-Kaşani ədəbin gücündən bəhs açarkən yazır ki, ədəbin əli onun dodağına sükut möhru vurur, yoxsa açıb söyləməyə sözü çoxdur (Feyz-Kaşani, 2018, s.248):

*Mizənəd bər ləbe-mən dəste-ədəb ğofle-xəmuşi ,*
*Vərnə besyar soxən həst ke mohtace-bəyan əst.*

*Ədəbin əli öz dodağıma sükut möhrünü vurur,*
*Yoxsa çox söz var ki, deyilməyə ehtiyac duyur.*

Heyvanın etdiklərini bir insan etmirsə, bunu etdirməyən ədəbdir. Heyvana ədəb verilmədiyi üçün etdikləri onu utandırmır. Ədəbi olmayan insan da, utancı olmayan heyvan kimidir. 13-cü əsr dahi fars şairi Sədi Şirazi yazır ki, insan oğlu ədəbsiz olursa, fizioloji baxımca insandır, mənəvi baxımca isə insan deyil. (Şirazi, 2020, s.347):

*Ademizade əgər biədəb əst, adəm nist,*
*Fərğe-ma beyne-bəni adəmo heyvan ədəb əst.*

*İnsanoğlu əgər ədəbsizsə, insan deyildir,*
*Biz insan oğlunu heyvandan ayıran ədəbdir.*

Ədəb özlüyündə gözəldir, ona sükut, və sayğı qatılarsa, gözəlliyi üç qat olur. Bu gözəllik, Mevlana Rumi demişkən, getdiyi hər yerdə insanı sultan edər (Rumi, 2021, s.46):

Sokut, ədəb, və ehteram ensan ra hər ca ke rəvəd soltan xahəd kərd.
Sükut, ədəb və sayğı insanı hər getdiyi yerdə sultan edəcək.

***Ağıl və seçilən fərd***

Ağıl - düşünmə, qavrama və anlama bacarığıdır. Ünsiyyət və anlaşmanın baş yolu olan ağıl düşüncəni yönəldir, ona işıq tutur və bu zaman bilik ağıl üçün sadəcə bir vasitədir. Əgər birinə ağıllı insan deyilirsə, deməl, o, yaşanan prosesləri, yeni fürsətləri, maneələri, riskləri, artım və əksikləri düzgün dəyərləndirir.

10-cu əsr dahi fars şairi Ə.Firdovsi bir sitatında ağıl, bilik, düzlük olmaqla üç ali özəlliyi sıralayır. Bu sıranın başında ağıl, sonra bilik, sonra da düzlük dayanır. Doğrusu, bir fərdin ağlı yoxsa, onun bilik və düzlüyü fayda verməz. Belə ki, biliyə də, düzlüyə də işıq və istiqamət verən ağıldır. Göründüyü kimi, ağıl düzlüyə, artıma, qurtuluşa apardığı kimi, əyrilik, ağılsızlıq isə çöküş və itkiyə aparır. Harada uğurlu, fərqlənən bir fərd görsəniz, bilin ki, orada ağıl aparıcıdır və harada uğursuz, fərqlənməyən bir fərd görsəniz bilin ki, orada ağıl aparıcı deyil (Firdovsi, 2018, s.296):

*Xerəd bayədo daneşo rasti,*
*Ke kəjji bekubəd dəre-kasti.*

*Ağıl, bilik, düzlük gərəkdir,*
*Əyrilik çöküş qapısını çalar.*

Nizami Gəncəvinin ağıl konsepsiyasına dair fikirləri çoxdur, onlardan hər biri öncəkini təkrarlamır, bir ayrı prizmadan ona yeni çalar qatır. Şair-filosof doğru buyurur ki, insan nəyə sahibsə, ağlın sayəsində sahibdir. "Yeddi gözəl" poemasında ağıl-yardım-uğur üçlüyü belə sıralanır (Nizami, 1394, s.34)

Xerəd əst an kəzu rəsəd yari,
Həme dari, əgər xerəd dari.

Ağıldır, ondan yardım yetər,
Ağlın var isə, hər şeyin olar.

***Saf niyyət və seçilən fərd***

Fəzillətin, hünərin bir qolu olan saf niyyət üstün bir insani özəllikdir. Saf niyyət o deməkdir ki, bir iş icra olunarkən pislik və təmənna ortada yoxdur, səslənən hər söz, hər iş təmiz niyyətdən qaynaqlanır. Saf niyyətdən saf iş doğar, saf işdən şəxsiyyət yaranar. Demək, saf niyyət və saf iş ortada olmayınca, insanda şəxsiyyət doğmaz, harada yaşamasından, hansı vəzifəni tutmasından asılı olmayaraq.

İnsan niyyətinin təmizliyinə diqqət çəkən Nizami Gəncəvinin qənaətincə, bir ölkə başçısının niyyəti saf olursa, onun ölkəsində bitən ot gül yerinə inci yetirər, yəni o ölkənin adı hörmətlə çəkilər və ora möcüzələr ölkəsinə dönər. (Nizami, 2019, s.143):

*Niyyət əgər nik başəd padeşa ra,*
*Qohər xizəd be caye-qol giya ra.*

*Padşahın niyyəti saf olsa əgər,*
*Otu gül yerinə inci gətirər.*

***Cəsarət və seçilən fərd***

Bir insanın heç nəyi olmayıb ağıla söykənən cəsarəti varsa, gec-tez onun çox şeyi olacaq. Cəsarəti olmayan insan diri olub, ölü olan insandır. Cəsarət elə bir duyğudur ki, insanın qarşısına yeni-yeni şanslar çıxarır, ona planlar ötürür və yeni-yeni mübarizələrə çağırır.

El arasında cəsarətli olana ürəkli insan deyilir. Bu təsadüfi deyil, çünki cəsarət bir fəzillət olaraq insanın ürəyində (qəlbində) yer alır və ordan onun əmrləri bütün bədənə, o sıradan ağıla diktə edir. Hər şeyi saf-çürük edən ağıl da cəsarətin önündə mum olur. Ulu öndər Heydər Əliyevin 70 yaşı olanda siyasi hakimiyyətə qayıdır. Bu zaman ölkə ağlar gündə idi, dövlət idarəçiliyi naşı əllərdə idi, iqtisadiyyat çökmüşdü. Ölkənin şimalında Rusiya, cənubunda İran, qərbində Ermənistan ölkəmizi parçalamaq üçün siyasi planlar qurub onu həyata keçirirdilər. Məhz bu zaman ulu öndər xalqı qurtarmaq üçün mübarizəyə qalxdı. Qocaman yaşında onu siyasi səhnəyə, həm də təhlükə dolu siyasi səhnəyə gətirən cəsarətidir.

Cəsarət prosesin sonunu deyil, onun başlanğıcını düşünməkdir, daha doğrusu, məntiqə dayanaraq düşünməkdir. 13-cü əsr fars sufi şairi Fəridəddin Əttar yazır ki, bir işi başladınmı qorxma, yol özü sənə deyəcək, hansı işlər görməlisən (Əttar, 2017, s.249):

*To pay be rah boqzaro hiç məpors,*
*Xode-rah bequyədət ke çun bayəd kərd.*

*Sən yola qədəm qoy, heç nə soruşma,*
*Yol özü sənə deyəcək, necə davranasan.*

***Sadəlik və seçilən fərd***

Sadə davranan insan özünü böyük və üstün saymır, öyünmür, kimsəni aşağılamır. Belə insana simpatiya (rəğbət) duyulur, onun gəlişindən, sözündən, təklif və öyüdündən kimsə incimir. Bir fərd sadə olursa, barışın, sevginin, sayğının, şəfqət və mərhəmətin yanında olmuş olur.

Sadəlik gözəl bir davranışdır, əgər ölçünü aşmasa. Ölçünü aşan sadəlik artıq sadəlik deyil, insanın üzündən heybət adlı duyğunu zədələdiyi üçün neqativ bir davranışdır. Heybət duyğusunu pozmayan sadəlik, Mevlana Rumi-nin təbirincə, sevilən davranış və sonsuz üstünlükdür (Rumi, 2021, s.346):

*Təvazo gər çe məhbub əsto fəzle-bikəran darəd,*
*Nəbayəd kərd biş əz hədd ke heybət ra ziyan darəd.*

*Baxma ki sadəlik sevilir və sonsuz üstünlüyü var,*
*Ölçüdən çox edilməsin, çünki heybətə ziyanı var.*

***Acı günlər və seçilən fərd***

Bir insan formalaşmadan öncə həyatı acı və çətin keçərsə, o şəxs böyüyərkən həyatında böyük uğurlar qazanacaq, sayılan və seçilən bir fərd olacaq. Hər kəs özünün və başqasının həyatından buna dair yüzlərlə örnək gətirə bilər. Nizami, Şekspir, Dostoyevski və yüzlərlə belə dahilərin uşaqlıq və gəncliyi ağır keçib, amma indi onları dünya tanıyır. Cəfər Cabbarlının atası odunçu idi, Heydər Əliyevin atası isə fəhlə olub. Birincisi Azərbaycan dramaturgiyasını, ikincisi Azərbaycan dövlət siyasətini ucalara qaldırdı.

İnsan yaşamında acı günlərin pozitiv iz qoyduğunu tərifləyən Saib Təbrizi buyurur ki, kimin həyatı dəniz kimi acı keçirsə, onun batini də, xarici də ənbər və inci olar, necə ki acı suyu olan dənizdə ənbər və inci adlı sərvətlər var. Şair daha sonra davam edir ki, daimi sağlamlıq kimi heç bir dərd yoxdur, çünki belə insanlar az yaşayırlar, bədənlərinin imunitet və gücü yetərincə olmur. Xəstəlik gəlmir ki, insanı öldürsün, gəlir ki, onu xətalarından ayırsın, yanlış getdiyi həyat yolunu dəyişsin, onu güclü, xoşbəxt eləsin. (Saib, 2019, s.46):

*Hər ke çun bəhr be təlxi qozəranəd əyyam,*
*Zahero batene-u ənbəro qouhər başərd.*
*Hiç dərdi betər əz afiyyəte-daem nist,*
*Təlxiyye-taze beh əz ğənde-mokərrər başəd.*

*Kim günlərini dəniz kimi acı keçirirsə,*
*Onun çölü də, içi də ənbər və inci olar.*
*Daimi sağlamlıq kimi bir dərd yoxdur,*
*Yeni bir acılıq təkrar qənddən yaxşı olar.*

***Dost və seçilən fərd***

Hər bir insan başqa bir insanla ya insanlarla təmas qurur, ona güvənir, onunla vaxt keçirir. Gerçək dost o kəsdir ki, dostunun yaxşılıqlara çatmasını istəyir, ona ürəkdən sayğı və sevgi duyur. Qarşılıqlı güvən, dürustlük, sayğı və sevgi olmadan, yaxşı və pis günlərdə bir-birini düşünmədən keçən dostluq gerçək dostluğa dönməz. Gerçək dostluq saf və dərin duyğulara dayanır. Bir insanın seçilən fərd olması üçün onun dost seçimi düzgün olmalıdır. Doğru dost doğruluqlara, əyri dost isə əyriliklərə (üzüntülərə, acılara, itkilərə) yol açır. Mevlana Rumi gerçək dostu gözəllik simvolu

olan bülbül saxta dostu isə murdarlıq simvolu olan qarğa adlandırıb yazır ki, bülbül, gülə aparır, qarğa isə zibilliyə (Rumi, 2021, s.183):

*Değğət kon ba çe kəsi dusti mikoni.Zira bolbol to ra be səmte-qol və kəlağ to ra be səmte-virani xahəd keşid.*

*Kiminlə dostluq etdiyinə diqqət et. Çünki bülbül səni gülə sarı, qarğa isə səni zibilliyə sarı çəkəcək.*

Dostların ən üstünü mütləq anlamda Tanrıdır. Onu özünə dost seçən insan heç vaxt əyri yola getməz. Bu doğru davranış insanı seçilən fərdə döndərər. Kainatı var edənə arxalanmaq sonsuz bir gücə arxalanmaqdır. Tanrını dost seçən 14-cü əsr fars qəzəl şairi Hafiz Şirazi yazır ki, min düşmən məni öldürməyi hədəfləsə, Sən dostum olurkən düşmənlərdən qorxum yoxdur (Şirazi, 2016, s.247):

*Hezar doşmənəm ər mikonəd ğəsde-həlak,*
*Gərəm To dusti, əz doşmənan nədarəm bak.*

*Min düşmən əgər mənim həlakımı hədəfləsə,*
*Sən dostum ikən, düşmənlərdən qorxum yox.*

İskəndər şah döyüşən və imperiyanı idarə edən bir hökmdar idi. Nizami bu hökmdarın adından dövlət başçılarına tövsiyə edir ki, dost seçiminə, döyüş və bayramlarda kimlər ilə ünsiyyət qurmasına diqqət etsinlər, çünki xəyanət çox vaxt dost libasına girən dost və yaxınlar tərəfindən gerçəkləşir. "İqabalnamə" poemasına baxaq (Nizami, 1391, s.126):

*Be hər ca ke başi ze peykaro sur,*
*Məbaş əz rəfiği sezavar dur.*

*Döyüşdə, bayramda harada olsan,*
*Layiqli dostundan uzaq dayanma.*

### *Az söz və seçilən fərd*

İnsanın çəkdiyi sıxıntıların yarısı yediyindən, yarısı da dediyindən qaynaqlanır. Odur ki, insan yediyinə və dediyinə diqqət etməlidir. Çünki bu ikisi insanı çərçivələyir və onu şəxsiyyət olaraq şəkilləndirir.

Yaradan insanın üzündə elə rəsm çəkib ki, orada iki qulaq, iki göz, iki burun dəliyi var, hər üçü çüt olmaqla və bircə ağız var. Bu rəsm əsəri ilə Yaradan sezdirir ki, insan yaxşı dinləsin, yaxşı götür-qoy etsin, yaxşı görsün və bir söyləsin. Deməli, insan altı durumda susmalıdır, bir durumda danışmalıdır.

Uğura çatmanın, seçilən fərd olmanın bir çox yolları var, onlardan birini Mevlana Rumi açıqlayıb yazır ki, az söyləsən – çox dinləyərsən, çox dinləsən – çox öyrənərsən, çox öyrənsən – çox artacaqsan. Böyük şair "çox artacaqsan" deməklə "seçilən fərd" olacaqsan demək istəyib (Rumi, 2021, s.143):

Hər *çe ğədr kəmtər hərf bezəni, biştər quş midəhi. Hər çe ğədr biştər quş midəhi biştər yad migiri. Və hər çe ğədr biştər yad migiri biştər roşd mikoni.*

*Nə qədər az danışsan, o qədər çox dinləyərsən. Nə qədər çox dinləsən, o qədər çox öyrənərsən. Nə qədər çox öyrənsən, o qədər çox artacaqsan.*

Sözün azı hər yerdə və hər zaman bəyənilib. Az söz dinləyəni bezikdirməz, dinləyənə rahatlıq verər, hədəfə tez çatar və yaddaşlara oturar. O, kəs sözün azını deyər ki, sözündə məna yükü var, az tutumla məna yükü olduğuna görə ürəklərə yol tapır. Sözə hər zaman dəyər verən, böyük sözün bir-tək qalıcı olub fənaya uğramadığını deyən Nizami Gəncəvi söz alıcısına tövsiyə edir ki, kəsəri asta tutsun, yoxsa inci sınacaq, yəni inci deşənlər kəsər alətini inciyə asta vurduqları kimi söz sahibi də az söz desin, çünki çox söz onu hörmətdən salar. "Şərəfnamə" poemasında söz-dodaq-kəsər-inci dördlüyünə nəzər edək (Nizami, 1386, s. 22):

*Soxən ta nəporsənd, ləb bəste dar,*
*Qohər nəşkəni, tişe ahəste dar.*

*Söz soruşmasalar, dodağı qapa,*
*Kəsəri asta tut, incin sınmasın.*

Söz düşüncədən qaynaqlanırsa, az olar, amma saz olar. Xaqani Şirvani sözün azını öyərək buyurur ki, söz fikir anasından doğursa, başqa sözlə, az və yerində səslənirsə, gözəl olacaq, sözün gözəlliyi onun azlığında və mənalı olmasındadır. Əsma adlı bir ərəb qadınından doğan Əsma adlı qız anasından daha gözəl olduğu kimi, sözün azı da gözəl olan sözü daha gözəl edər (Xaqani, 1382, s.139):

*Soxən beh əst ke manəd əz madəre-fekrət,*
*Ke yadqar həm Əsma nekutər əz Əsma.*

*Yaxşı olar ki, söz fikir anasından qala,*
*Əsmadan da gözəl olan qızı Əsma kimi.*

### *Mütaliə və seçilən fərd*

Mütaliə insanı ucaldan, bütün həyat boyu, yaşlılıq və ağıl dövründə belə gərək olan bir faktordur. Mütaliə zehni itiləyir, dünya proseslərinə yeni pəncərələrdən

baxmağa kömək edir, oxucunun söz ehtiyatını artırır. Düzənli olaraq kitab oxuyanlar danışırkən, çıxış edərkən söz üçün gəzməz, sinonim və antonimləri bol-bol işlədər, beləsinin sözündən kimsə bezikməz.

Ə.Firdovsi tövsiyə edir ki, heç zaman öyrənməkdən, mütaliədən bezikmə, bilikdən ürəyini gümana salma, hər şeyi bilirəm demə, yoxsa zaman səni müəllim önünə otuzdurar. Şair sitatda "ağlın tamamına çatmaq" idiomatik feilini işlədir, "bu da tam ağla sahib olmaq" anlamına gəlir. Bundan başqa, "rüzgar oyun oynayar", "rüzgar müəllim önünə otuzdurar" metaforik ifadələrə də yer ayırır (Firdovsi, 2018, s.342):

*Məyasay ze amuxtən yek zəman,*
*Ze daneş məyəfkən del əndər gəman.*
*Ço qui ke fame-xerəd tuxtəm,*
*Həme hərç bayəstəm, amuxtəm,*
*Yeki nəğz-bazi konəd ruzgar,*
*Ke benşanədət pişe-amuzqar.*

*Öyrənməkdən heç zaman usanma,*
*Bilikdən ürəyini gumana salma.*
*Desən ki, ağlın tamamına çatdım,*
*Nələr gərəkdir, hamısını öyrəndim,*
*Ruzigar gözəl bir oyun oynayar,*
*Səni müəllim önünə otuzdurar.*

### *Özünə inam və seçilən fərd*

İnsan özünə inanırkən, bacarıq və istedadına güvənirkən həyatda rastlaşdığı problemlərin çoxunu özü çözə bilər. Özünə güvənən insan hər işi bacaran birisi deyil, nəyi bacardığının fərqində olan birisidir.

Hər şeyin bir düşməni var, özünə inamın da düşməni gözləntidir. Gözlənti (başqalarının kömək və yardımına güvənib gözləmək) qoymur ki, insanın bacarıq və istedadı qol-qanad açsın. Pakistanlı şair Məhəmməd İqbal vurğulayır ki, dünyada yaşayarkən qol-qanad gərməyi öyrən, hər işdə ancaq özünə güvən, çünki başqasının qol-qanadı ilə uçmaq olmaz, yəni özgənin bacarıq və istedadının ortaya çıxardığı uğurun başqasına bir faydası olmaz (İqbal, 2021, s.98):

Dər cəhan balo pəre-xiş qoşudən amuz,
Ke pəridən nətəvan ba pəro bale-degəran.

Dünyada öz qol-qanadını gərməyi öyrən,
Özgələrin qol-qanadı ilə uçmaq olmaz.

## Nəticə

Araşdırmalar göstərir ki, ünsiyyət və seçilən fərd anlayışları bir-biri ilə sıx bağlıdır. Bu yazıda seçilən fərd olmanın 11 yolu qeyd olunsa da, əslində onlar daha çoxdur. Bu məqalənin tutumuna sığmadıqlarına görə hamısına yer ayıra bilmirik, daha önəmli olanlarına yer ayırırıq. Son olaraq vurğulayırıq ki, seçilən fərd olmanın yolları zaman-zaman artır, onlarda azalmaq tendensiyası yoxdur.

## Ədəbiyyat

1. Saib T.,Divane-əşar, Təbriz, “Farid” 2019, 458 s.
2. Feyz-Kaşani M., Divan, Kaşan “Kave”, 2018, 642 s.
3. Şirazi S., Qəzəliyyat, Shiraz, “Sepide”, 2020, 823 s.
4. Rumi M., Məsnəviye-Mənəvi, Tehran, “Əlmas” 2021, 743 s.
5. Nizami G., Həft peykər, Tehran, “Afetab”, 1394, 268 s.
6. Firdovsi Ə., Shahname, “Nəvin” 2018, 921 s.
7. Nizami G., Xəmse, Tehran, “Cavidan” 2019, 642 s.
8. Əttar F., Divane-koll, Nishabur, “Qozide” 2017, 792 s.
9. Şirazi H., Qəzəliyyat, Tehran, “Mohəndisi” 2020, 646 s.
10. Nizami G., Eğbalname, Tehran, “Foruzan”, 1391, 203 s.
11. Nizami G., Şərəfname, Tehran, “Sobhedəm”, 1386, 376 s.
12. Xağani Ş., Kolliyate-Divan, Tehran, “Hedayət”, 1382, 376 s.
13. İqbal M., Kolliyate-asar” Tehran “Mahtab” 2021, 343 s.

**Daxil olma tarixi: 06.08.25**
**Qəbul tarixi: 13.10.25**